Müstəqil ictimai-siyasi, publisistik qəzet Kredo № 14 (939) 04 aprel 2019-cu il S.1. Qiyməti 1 manat Qəzet 1999-cu ilin oktyabrından çıxır

Vətən istinadı -Azərbaycançılıq

“Tənqidçinin azərbaycançılıq idealı”na son söz əvəzi



Əli Rza XƏLƏFLİ

Yazılan hər kitabın böyük əziyyətlə başa gəldiyini hər bir müəllif yaxşı bilir. Ancaq *«Tənqidçinin azərbaycançılıq idealı»* mənə gətirdiyi əzablar qədər, bəlkə, daha artıq zövq, daha üstün mənəvi məmnunluq gətirdi. Əgər bu kitabı işləməsəydim yəqin ki, yeni şeirlərim, bədii-publisitik yazılarım bu kitabla zamana borcumun çox hissəsini - hər halda az olmayan xeyli qismini vermiş sanıram özümü. Bu kitab mənim üçün həyata estetik, eləcə də ədəbi-tənqidi görüşlərimi özündə ehtiva edib.

Görkəmli ədəbiyyatşünas-tənqidçi, professor Təyyar Salamoğlunun xalqımızın qüdrətli sənətkarları M.Ə.Sabirin ***(Firidunbəy Köçərli, Abbas Səhhət, Mirzə Cəlil və «Molla Nəsrəddin»çilər, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev və «Füyuzat»çılar)*** və onun timsalında Vətən və millətə fərqli münasibətlər müstəvisindən ehtiva olunmuş sevgiləri ruhumu, düşüncəmi uzun müddət cazibəsindən buraxmayıb. Sabirə münasibətdə isə fərqli yanaşmalar və bu yanaşmalara professor Təyyar Salamoğlunun obyektiv və polemik münasibəti məni də polemikaya çəkdi. Dövrünün **(və bir çox məsələlərdə, həm də gələcək dövrlərin)** böyük alimi Yaşar Qarayevlə sağlam polemik ünsiyyəti Təyyar Salamoğlunun sələf-xələf münasibətlərində varisliyi qırmağa yox, onun bağlarını qorumağa xidmət edir. Bu münasibət həm də elm naminə əqidə, amal prinsipiallığının qorunmasıdır.

Bəri başdan demək yerinə düşər ki, Təyyar Salamoğlunun həm portret cizgilərində, həm də onun tədqiqat əsərlərində azərbaycançılığın aparıcı xətt olduğu əsər boyu vurğulanır. Azərbaycançılıq həm əsərdə, həm də günümüzün ədəbi-elmi düşüncəsində problem - sual kimi qarşıya çıxır. Hər cür təminatı olan adam azərbaycançıdır, yoxsa bütün maddi imkanlardan məhrum olan şəxs, yaxud hər ikisi üçün azərbaycançılığın düşüncə əhəmiyyəti var.

Bir vaxt Rusiyada varlı övladları **(B.Napoleonun Rusiyaya hücumu)** Fransa-Rusiya müharibəsində kasıb övladlarının Rusiya üçün vuruşlarını özlərinə təhqir kimi qəbul edirdilər. Tolstoyun *«Hərb və sülh»*ündə göstərildiyi kimi, sonralar tarix şahid oldu ki, müharibəni düşmənə qarşı yalnız xalqın birliyi uda bilər. Xalq bütövlükdə mübarizə aparmaqla Vətəni xilas edə bilər. Yəni Rusiyanı ayrı-ayrı zümrələr yox, xalq bütövlükdə xilas etdi. Sonralar L.Tolstoyun *«Hərb və sülh»*ü İkinci Dünya müharibəsində **(elə I Cahan savaşında da)** qələbə üçün vətəni xilas etmək naminə vuruşda az rol oynamadı. Təyyar Salamoğlu Sabir **(və Sabirlə bağlı digər ideoloq və sənətkarların)**, İsmayıl Şıxlı, Fərman Kərimzadə və qeyri sənətşünas, ədəbiyyatşünas və digər söz-fikir sahiblərinin düşüncə timsalında ayrı-ayrı zümrələrin birləşmə məqamlarını tapır, onları milli birliyə, vətənə xidmətə çağırır.

Ayrı-ayrı zümrələrin birləşmə məqamları millətin varlığını təmin edən tarixi adət-ənənə və dil birliyidir. Əgər bu birliyi ideologiya kimi düşünsək, bizim üçün bu ideologiya azərbaycançılıqdır. Başqa sözlə, Azərbaycan uğrunda amal birliyidir. Vətənin xilası bu birlikdədir. Onun da bel sütununu və düşüncə mexanizmini türk mənəvi mühiti və turan birliyi ehtiva edir.

Tədqiqatda ədəbiyyatşünas-tənqidçi Təyyar Salamoğlunun üç əsəri - üç kitabı əsas götürülüb. *«İsmayıl Şıxlının bədii nəsri»*, *«Qarlı aşırım»dan keçən yollar»*, *«M.Ə.Sabirin milli intibah idealı»*... hər üç əsərdə xalqın milli varlığını qoruyan keyfiyyətlər araşdırılır. Əsərlərin ümumi cəhəti millətin birliyini qorumaq, milli varlığın yaşarılığını təmin edən keyfiyyətləri üzə çıxarmaq, günümüz üçün aktual cəhətləri göstərməkdir.

Doğrudur, bu əsərlərdə kristallaşmış, ancaq humanizm baxımından yalnız tarixi əhəmiyyət kəsb edən adət və ənənələri idealizə meylləri də nəzərə çarpır.

Yeri gəldikcə bu məqamlara etiraz da bildirmişik. **(Məs: Ömər Koxa kimi bir ağsaqqalın günahsız gəlinə sərt münasibəti qətiyyən təqdir oluna bilməz).** Namus qapalı mahiyyətdir, mərdlik, kişilik açıq... Hər halda kişilk qanunları adətə üstün gəlməli, günahsızı bağışlamağı da bacarmalıdır. Mif günahsızı bağışlamayanı bağışlamır. Kim bilir, əsərdə görünməsə də həyatdakı Ömər Koxa ailəsinin faciəsini görəndə **(bəlkə son anında)** o bağışlaya bilmədiyi gəlinin ahını da yada salıb. Mifdə uzunsaçlının ahı yerdə qalmır.

Hər halda milləti birliyə çağırış baxımından Təyyar Salamoğlunun əsərləri çox dəyərlidir. Ən azı ona görə ki, bu vaxta qədər onun obyekt olaraq təhlilə çəkdiyi əsərlər yalnız ictimai aşağıların mənafeyi və istəkləri baxımından şərh edilib. Salamoğlu isə ilk dəfə bu əsərlərə nə ictimai aşağılar, nə də ictimai yuxarılar mənafeyindən yox, milli birliyə çağırış mövqeyindən yanaşıb. Doğrudur, bütövlükdə yaradıcılığına xas keyfiyyət kimi o, poelmik ruhda yazdığı əsərlərində mübahisəyə imkan yaradan məqamlardan qaçmır. Onun üçün əsas ideal millət və vətən birliyidir. İdeal onu çağıran ümid işığıdır: *«İnsanın və ya ictimai təfəkkürün **(cəmiyyətin fəaliyyətinin)** xarakter və üsullarını müəyyənləşdirən təsəvvürlərin obrazı... ...İctimai ideal təkmil ictimai quruluş haqqında təsəvvürlərin obrazıdır. Özündə əxlaqi nümunə ola biləcək keyfiyyətləri birləşdirən kamil insan haqqında təsəvvürlərin obrazı əxlaqi idealdır... ...Xoşbəxt həyat və kamil insan haqqında təsəvvürlərin təcəssümü olan bütöv konkret hissi obraz estetik idealdır...* **(ASE-IV cild).** ASE-də oxuyuruq: *«...İdeya obyektiv aləmin proses və qanunauyğunluqlarının, şeylərin və hadisələrin əks olunmasıdır»* **(IV cild).** Engels deyirdi ki, bütün ideyalar təcrübədən götürülmüşdür, bunlar gerçəkliyin düzgün və ya təhrif olunmuş formasıdır **(F.Engels. Anti Dürinq. Bakı-1967, səh.342).** Cəmiyyətin ictimai idealının formalaşmasında dünya ədəbiyyat və folkloru necə böyük əhəmiyyət kəsb edirsə, Azərbaycan xalqının **(və eləcə də millətinin)** ictimai idealının saflaşmasında, sağlam cəmiyyətə doğru hərəkətində bir sistem olaraq Azərbaycan bədii düşüncəsinin **(yazılı və şifahi)** xidmətləri də bir o qədər böyükdür.

Yazıçı nə demək istəyirsə bu ideyaya doğru hərəkətə çağırışdır. Onun yazısının mənası və mahiyyəti özlüyündə onun ideyasıdır. Tənqidçi də belədir; tənqidi yanaşmada araya-ərsəyə gələn fikir, düşüncə məhsulu olan söz - əsər onun cəmiyyətə nə demək istədiyini açıqlayır. Yazıçı ideyasını cəmiyyətdən, təcrübədən alır, tənqidçi həm cəmiyyətdən - təcrübədən, biliklər sistemini ehtiva edən təfəkküründən, həm də müraciət elədiyi estetik və ədəbi tənqidi düşüncə materialından. Yazıçının estetik idealı daha çox mübahisə doğura bilər. Tənqidçinin idealı isə nisbətən konkret və aydındır.

Azərbaycançılıq idealı milli ruhun, milli varlığın işğalına qarşı dözümsüzlük, qiyam gücüdür. Azərbaycançılıq Təyyar Salamoğlunun əsərləri boyu öz adı ilə xarakterizə olunmasa da, alt və əsas qatda onun əsas istinad mənbəyidir. Qədim yunan alimi Arximed təsadüfi demirdi ki, *«mənə istinad verin, yer kürəsini laxladım»*.

Mənə istinad verin... Bəlkə də hər birimiz aşıra bilmədiyimiz problem qarşısında həmin istəklə düşünmüşük. Bəzən istinadsızlıq - təcridlər bizi ümidsizliyə düçar edib. İstinad mənim üçün dayaqdır. Bəzən bu dayağı tapmayanda ümidsiz oluram. İstinad, istinad, hardasan harda? Səni axtarıram Vətən boyunca, hardasan ümidim qalmasın darda, Həsrətim Arazdan içsin doyunca.

İstinadlar çəngəlliyə düşəndə **(oxu: düşüncə qarışıqlığı)** həyat istinkti kimi bizə yol açır. Əsər boyu həm tənqidçinin portretindən xarakterik cizgiləri, həm də tədqiqatlarının şərhi zamanı tutarlı istinadlar fikir və düşüncələrimin aydınlaşması üçün yardımçım olub.

Təyyar Salamoğlu fərdi üslub sahibidir. Onun üslubunu yaradıcılığının poelmik ruhu müəyyənləşdirir. Fərdi üslubun formalaşması müəllifi tanıdan əsas keyfiyyətdir. Akademik İsa Həbibbəylinin düşüncələrimə aydınlıq gətirən sərrast mülahizələrini yada salıram: *«Son yarım əsrdə Azərbaycanda humanitar düşüncə sahəsində universal zəkaya malik olan bir neçə nəfəri xüsusi fərqləndirmək mümkündür. Əli Sultanlı, Mikayıl Rəfili, Yaşar Qarayev, Aydın Məmmədov... Və Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Nizami Cəfərov da humanitar elmlər üzrə universal zəka nümayiş etdirən görkəmli alimlərdən biridir. Ən maraqlı cəhət ondan ibarətdir ki, Nizami Cəfərov elmi-ictimai fikrimizin, humanitar düşüncənin ən azı bir neçə sahəsində tam professionaldır: Azərbaycan dilçiliyi, türkologiya, azərbaycanşünaslıq, ədəbiyyatşünaslıq, folklor, mədəniyyətşünaslıq və sair»* **(İsa Həbibbəyli. Ədəbi tarixi yaddaş və müasirlik. Bakı-2007, səh.451).** Məhz bu istinadın məntiqinə söykənib çox istedadlı ədəbiyyatşünas-tənqidçinin - Təyyar Salamoğlunun da artıq elmi üslubunun tam kamil bir mərhələyə çatdığını deyir və akademikin sadaladığı adlar sırasında onun aydınlaşmış, üslubu ilə tanınan alim yeri olduğunu, bu yerin göründüyünü düşünürəm.

Onun sələfi Aydın Məmmədovla bağlı elmi-nəzəri yazısından belə bir fikir keçir ki, tənqidçi ədəbi fatka ümumi şəkildə qiymət vermir, hər bir bədii mətnə inkişaf, təkamül zəminində yanaşır. Bu yanaşma Təyyar Salamoğlunun yaradıcılında da özünü təsdiq edən bir tərz kimi yadda qalır. Ancaq bu cür yanaşma onun yaradıcılığında tarixin inkişafı, cəmiyyətin mənəvi təkamülü ilə təsdiqini tapır.

Bədii ədəbiyyat üçün belə bir fikir var ki, müəllif zamanından asılı olmayaraq öz hisslərini, duyğularını qəhrəmanlarının varlığına hopdura bilmirsə, əsər həyatla, real insanla səsləşməyəcək. Bunun belə olduğunu bədii yaradıcılıqla məşğul olanlar yaxşı bilir. Zənnimcə, nə qədər paradoksal görünsə də bu fikir öz təsdiqini ədəbi tənqiddə də tapır. Təyyar Salamoğlunun Aydın Məmmədov fenomeninə işıq salan xarakterik qeydləri elə onun özünün də tənqidçi obrazını bütün aydınlığı ilə təqdim edir: *«A.Məmmədov sərt tənqidçi idi, güzəştə getməyi bacarmırdı. Ədəbi mühitdə onun məsələləri tündləşdirməsi, hər şeyi «qara eynəklə görməsi» ilə bağlı fikir də formalaşdırılırdı. Üzləşdiyi çətinliklər, hətta bəzən bütün varlığı ilə bağlı olduğu ədəbiyyat aləmindən baş götürüb qaçmağa məcbur olması da onun tənqidçi şəxsiyyətinə, «söz»ünə qaragüruhçu münasibətlə bağlı idi. Şübhəsiz ki, A.Məmmədovun şəxsiyyətinə hörmət qoyan, tənqidi təfəkküründü qiymətləndirən qüvvələr də az deyildi. Təhlil predmetini öz səviyyəsinə endirən tənqidçilərdən, tənqidçidən ancaq tərif gözləyən yazarlardan fərqli olaraq, A.Məmmədovun qəti mövqeyi belə idi ki, «əgər söhbət ağıllı tənqiddən gedirsə, sözün əsl mənasında qarşısındakı vəzifəni düzgün başa düşən tənqiddən gedirsə, onun tərifi də, tənqidi də birinci növbədə təhlilə əsaslanmalıdır». A.Məmmədov, ilk növbədə, bu sənət kredosundan, ikinci növbədə isə bədii mətnin diktəsindən çıxış edir, analitik təhlillərini ortaya qoyurdu»* **(T.Salamoğlu. Azərbaycan ədəbiyyatı: mübahisələr, həqiqətlər. Bakı-2016, səh.300).**

(Davamı 16-cı səhifədə)

“Tənqidçinin azərbaycançılıq ideali”na son söz əvəzi

(Əvvəli 1-ci səhifədə)

Beləcə, qayıdıram o yerə ki, deyirdim *«mənə istinad verin...»* Bir anlığa düşünək ki, bu istinad nağıllardakı qızıl almadır. Nağıllarda o alma insana yeni həyat bəxş edir. Sözdə fikir istinadı, gücü nəyə qadirdir? *«İSTİNAD OLSA»* - poetik duyğular da bir cavabdır, bəlkə də, əsas cavabır:

Gücümü görməyə istinad verin,
Çəkim bu dünyanı nizama gəlsin.
Açım qapısnı bağlı dillərin,
Hünərlər sevinsin, ağıllar gülsün.

Versən istinadı gül-çiçək kimi,
Görərsən ilhamım necə ox olur.
Görərsən yalanlar çən-çisək kimi
Dağların başından necə yox olur.

Sevgili duyğunun adı, ünvanı,
Mənim heyrətimdə istinad sözdü.
İstinad ruhumda haqqın divanı,
Sinəmin üstündə ocaqdı, közdü...

İstinadım olsa, deyirəm hələ,
Dağları baş-başa gətirər gücüm.
Bu həyat eşqini necə var elə,
Zamandan-zamana ötürər gücüm.

Gətir, yovşan ətri, vətən qoxusu
Mənim varlığıma istinad olsun.
Adını dəyişsin həsrət yuxusu
Bir ömür payıma şirin dad olsun.

Mənə istinad ver, yeriyim gedim,
Gəzməyə, görməyə yurd yerlərni.
Mənə istinad ver təşəkkür edim,
Öpdükcə müqəddəs dərd yerlərini.

Mənə istinad ver ağlı-qaralı,
Bütün yuxuları yozum, yaradım.
Mənə istinad ver dərdli, yaralı.
Tarixi təzədən yazım, yaradım.

Vətən məkandır, Azərbaycançılıq ideologiya. İdeologiya vətəndaşı mənəvi cəhətdən silahlandırır ki, vətəndaş vətəni qorusun. Bu silah nədir və onu vətəndaşa necə vermək lazımdır? - suallarına cavab vermək, özü də əhatəli cavab vermək tələb edir mənsub olduğun etnosun, sakini olduğun Vətənin tarixini mükəmməl biləsən. Onun faciələrinin, xoşbəxt günlərinin, qələbə və məğlubiyyətlərinin səbəblərindən xəbərdar olasan. Bu mənada Azərbaycançılıq həm də vətəni sevmək **(onu tanımaq, qorumaq, gələcək nəsillərə varlığında yaşayan ən yaxşı duyğularla ötürmək, əmanətləməkdir)**, təkcə bu gününü qorumaq yox, həm də tarixi sərhədlərini bərpa etmək uğrunda mübarizədir. Bu mübarizədə ilkin istinad dildir. Dil nə qədər geniş məkan tuta bilirsə, azərbaycançılıq da **(vətənçilik də)** bir o qədər güc kəsb edir. Azərbaycançılıqda qüdrət - ordu, rəmzlər - bayraq, himn, gerb və bunlarla bərabər Anayasa dövlət mahiyyəti kəsb edir. Milli ideologiya dövlət və millət vəhdətində xidmət edir. Bir sözlə, Vətən istinadı - Azərbaycançılıq kimliyimizi qorumağın dəyərini stimullaşdırır, göstərilən tərəflərin bağlılığında əsas amil rolunu oynayır.

Təyyar Salamoğlunun tədqiqatlarının alt qatından keçən əsas xətt milli ruhun gücünün tərənnümüdür. Bu da istər-istəməz istiqlalın bərpası zamanının önə çıxardığı əsas ideologiyanın bədii mətnindən gələn gücdə təzahürünün ədəbi-tənqidi düşüncə ilə ifadəsidir. Vətən istinadı - azərbaycançılıq, həm də hər birimizin istinadıdır. *«MƏNİM İSTİNAD YERİM»* ruhumun, poetik duyğularımın göstərdiyi ünvandır:

Mənim bu dünyada istinadım var,
Yurdum Azərbaycan - istinad yerim.
Qürurum zirvədən boylanar, baxar,
Mənim istinadım şöhrət, ad yerim.

Mənim istinadım Şəhriyar, Vurğun,
Nəsillər tanıyar bir meyar məni.
Xudafərin üstə dayansam yorğun,
İstinad tağları qoruyar məni.

Mənim istinadım Qarabağ dərdi,
Təbrizdən bir xəbər Cıdır düzünə.
Arzular, istəklər sanma hədərdi,
Allah da inanar şair sözünə.

İstinad millətə sevgi, məhəbbət,
İstinad bir xalqın dili, yaddaşı.
İstinad əslinə, soyuna hörmət,
Olmasa tanımaz qardaş qardaşı.

İstinad söykəniş, istnad heyrət,
İstinad doğrunun özü, Allahı.
İstinad təpərdi, istinad qeyrət,
İstinad bəşərin aydın sabahı.

İstinad Sabirdi, Mirzə Cəlildi,
Bir açıq kitabdı oxuyan gərək.
Bir sönməz işıqdı, ölməz dəlildi,
İstinad naxışdı toxuyan gərək.

Mənim istinadım nə sərvət, nə var,
Mənim istinadım bir türk adımdı.
Necə ki, Vətən var, Azərbaycan var,
Can sözü dilimdə istinadımdı.

Deməzdim ki, poeziya bütün hisslərimizi ehtiva edir. Ancaq hər halda hisslərin, duyğuların alt qatında olanlara poeziya daha yaxındır. Bu yazıya daxil olub, yazı sakini kimi vətəndaşlıq haqqı alan bu şeirləri ***(«mənə istinad verin» və «mənim istinad yerim»)*** elə bu qeydləri yazarkən dünyaya - ruhumdan, varlığımdan gətirdim. Bu da təsadüfi deyil. Tədqiqat üçün götürülən əsərləri - professorun ədəbi trilogiyasını oxuduqca müəyyən məqamlarda millətə sevginin səmimiyyəti məni riqqətə gətirirdi. Ədəbi obrazlarla canlı həyatın varlığı kimi danışmaq hissi doğururdu. Bu da əsas istinadımızın - Vətənçiliyin - Azərbaycançılığın poeziya ilə təzahürünə çevrildi. Vətənçilik - azərbaycançılıq duyğularım poetik yaddaş yükü yığdı.

* * *

Professor Təyyar Salamoğlunun yaradıcılığını tam ehtiva etməsə də, hər halda onun yaratdıqlarının müəyyən hissəsini əhatə edən *«Tənqidçinin azərbaycançılıq ideali»* kitabı azərbaycanşünas alimin həyat və yaradıcılığından bəhs edən ilk monoqrafiyadır.

İlk addım tərəddüdlər və bəzən səhvlərlə də müşayiət olunur. Ancaq zəhmət son nəticədə gözlə görünəcək formaya düşürsə, həm əziyyətləri unutdurur, həm də fərəh bəxş edir. Əgər əsər hər hansı dəyərli oxucuya az da olsa mənəvi təminat, estetik zövq **(əsərdə esse səhnələri az deyil)** bəxş edəcəksə, bu, mənə bəs olacaq mənəvi mükafatdır. Onsuz da *«can sözdür»* deyib bizdən yeylər, sözdən özgə nəyimiz var ki?..

* * *

Ey İnsan! Mən sənin üçün yazıram... İstəyirəm ki, sən dünyaya gələndə necə təmiz və duru idinsə, dünyadan gedəndə də eləcə sağlam və aydın olasan. Daşıdığın genlərin, aldığın tərbiyənin, gördüyün mühitin fəsadlarından xilas olmaq istəsən, inan ki, yollar var və səni həmin yolla aparan bələdçi var. Bu, sözdür. Səni daha ucalara qalxmağa imkan verməyən yükdən azad ol. Sözə inam gətirsən, hər şeyə gücün çatar. Mən «xoşbəxtlər ölkəsi»nin olduğuna inanıram. Bu, insanın ucaldığı - ucala biləcəyi sağlam, mənəvi düşüncə imkanıdır. Özünlə aparma yalanı, saxlama həsədi, tamah həzlərinin son nəticədə hissəvi ölümlərə yol açan iztirablar olduğunu gərək biləsən. Qorxuram, insanı rəzilə çevirən o təhlükəli virusları özünlə aparıb torpağa qarışdırma, bir gün sənin torpağından bitə bilər. Necə ki, sağsan, ölməmisən onları öldür, öldür ki, özün sevinəsən.

Ey İnsan, aç yaxanı - duyğularının qapısından kilidi götür, qoy varlığına sözün saf, sağlam nəfəsi yol tapa bilsin. Bu, sözdən çox sənə gərəkdir. Sələflər - Sabir... İsmayıl Şıxlı, Fərman Kərimzadə belə düşünürdü. Xələflər - müasir istinadlarım da bunu deyir. Sözün və sənətin sevdalısı Təyyar Salamoğlunun düşüncələrindən də oxuduğum budur. Ey İnsan, müdrikləri öyrən, ağıllı çağdaşları eşit, sözü tapınaq bil və ona inan.

Bir daha deyirəm: Mən sənin üçün yazıram, İnsan!..

* * *

Bu gün övladlarımın ad günüdür. Hər üçü 5 avqustda doğulub. Bir il, bir il fərqlə... Özümü çox yaxşı hiss edirəm. Daha bir kitabımı yazıb bitirdim.

2016